**İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üzrə görülən işlər haqqında**

"Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 8 may tarixli 2642 nömrəli Sərəncamına icrası ilə əlaqədar Şuşa şəhərinin hazırda işlənməkdə olan Baş Planına uyğun olaraq Azərbaycan Respublikası Energetika Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda Xüsusi nümayəndəsi və Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmaqla müvafiq təkliflər hazırlanmış, Enerji təchizatı məsələləri İşçi Qrupunun iclaslarında müvafiq dövlət qurumlarının iştirakı ilə müzakirə edilmişdir.

İlkin mərhələdə yerinə yetirilməsi nəzərdə tutulan layihələrdə müəyyən dəyişiklərin aparılması zəruriyyəti, Baş Planda aparılan dəqiqləşdirmələr və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda Xüsusi nümayəndəsinin təklifləri nəzərə alınaraq son nəticədə 7 qazanxana və 1 istilik məntəqəsi tikilərək istifadəyə verilmişdir. Bundan başqa 20-ə yaxın binada məhəllədaxili və binadaxili istilik sistemləri tam şəkildə yenidən qurulmuşdur.

Qazanxanaların göstəriciləri :

| S/s | Qazanxana-nın №-si | Torpaq sahəsi, m² | Qazanxananın gücü, kVt (kkal/saat) | Qazanların sayı | İstehlakçıların sayı | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 247 | 280 (240800) | 2 | 2 | istismara verilmişdir |
| 2 | 2 | 278 | 840 (722400) | 3 | 2 | istismara verilmişdir |
| 3 | 3 | 316 | 840 (722400) | 3 | 1 | istismara verilmişdir |
| 4 | 4 | zirzəmi | 1400 (1204000) | 5 | 2 | işlər başa çatdırılmışdır |
| | istilik məntəqəsi | zirzəmi | | | | işlər başa çatdırılmışdır |
| 5 | 5 | 775 | 2790 (2399400) | 3 | 9 | istismara verilmişdir |
| 6 | 6 | 358 | 1120 (963200) | 4 | 2 | istismara verilmişdir |
| 7 | 7 | 287 | 840 (722400) | 3 | 1 | istismara verilmişdir |
| Cəmi: | | 2261 | 8110 (6974600) | 23 | 19 | |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 fevral tarixli 46 nömrəli Sərəncamına əsasən "Azəristiliktəchizat" ASC-nin strukturunda "Şuşa İstilik Sistemləri İstismar Sahəsi" yaradılmış və hal hazırda xidmət zonasına daxil olan istehlakçılara ən yüksək səviyyədə istilik və isti su təchizatı xidmətləri göstərilməkdədir.

"Azəristiliktəchizat" ASC-nin əsas icraçısı olduğu "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planının:

**Fəaliyyət istiqaməti 2.3.** Yaşayış məntəqələrinin kommunal (elektrik enerjisi, qaz, istilik və isti su, içməli su təchizatı, tullantı sularının axıdılması və təmizlənməsi, yağış sularının idarə olunması) və rabitə xidmətləri ilə təmin edilməsi bölməsi

**Tədbir 2.3.3.** İstilik və isti su təchizatı şəbəkələrinin qurulması tədbiri üzrə Şuşa şəhərində 7 qazanxana və 1 istilik paylayıcı məntəqə tikilərək istismara verilmiş, 17 inzibati və sosial obyektdə məhəllədaxili və binadaxili istilik və isti su təchizatı sistemi bərpa edilmişdir.

**Fəaliyyət istiqaməti 6.4.** Ərazilərdə enerji səmərəli və ekoloji təmiz texnologiyaların tətbiqi bölməsi

**Tədbir 6.4.12**. Optimal istilik və isti su təchizatı sistemlərinin seçilməsi və müvafiq infrastrukturun qurulması ilə bağlı təkliflər hazırlanması və təqdim edilməsi tədbiri üzrə Azərbaycan Respublikası Energetika Nazirliyi ilə birlikdə İşğaldan azad edilmiş ərazilərdə yaşayış və qeyri-yaşayış (ictimai) binalarının, o cümlədən fərdi evlərin istilik və isti su təchizatı ilə əlaqədar alternativ həll yollarına dair təkliflər hazırlanmışdır.

Bu tədbirlər çərçivəsində əlavə olaraq "Ağdam şəhərində orta sıxlıqlı yaşayış məhəlləsinin mərkəzi istilik sisteminin qurulması" layihəsi ilə bağlı müvafiq rəy və təkliflər hazırlanaraq təqdim edilmişdir.